# **Həftəlik**

# *Bülleten*

**123**

**26 Dekabr 2025**



Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycanda 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib – SƏRƏNCAM.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020–2025-ci illərdə-dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə mili iradənin təzahürüdür. BMT-nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir.BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir". Sənəd Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədi daşıyır. Sərəncamla Prezident Administrasiyası Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini hazırlayıb Prezidentə təqdim etməlidir.



**İlham Əliyev Xankəndidə Zəfər parkının açılışında iştirak edib.**

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verdi. Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub. Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub. Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə "Zəfər qalereyası" sərgi-nümayiş zalı yaradılıb. Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir.



**Prezident Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.**

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub. Dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verildi. Qeyd edək ki, Qarabağ Universitetinin Mühəndislik fakültəsi müasir texnoloji çağırışlara cavab verən, innovasiya və tətbiqyönümlü mühəndis kadrların hazırlanmasını hədəfləyən əsas akademik struktur bölmələrdən biridir. Fakültədə bakalavriat səviyyəsində elektrik və elektronika, inşaat, mexatronika və robototexnika, logistika və nəqliyyat texnologiyaları, kompüter mühəndisliyi, data analitika və riyaziyyat daxil olmaqla 7 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Gələcəkdə mühəndislik istiqaməti üzrə yeni ixtisasların açılması nəzərdə tutulur. Yeni binanın müasir standartlara uyğun inşa edilərək qısa müddətdə istifadəyə verilməsi planlaşdırılır. Tədris binası keyfiyyətli kadr hazırlığını təmin edən, tələbələrin nəzəri bilik və praktiki bacarıqlarının inkişafına, həmçinin innovativ fəaliyyətlərinin genişləndirilməsinə xidmət edən auditoriyalar, laboratoriyalar, kitabxana, elmi-tədqiqat və innovasiya məkanları ilə təchiz olunacaq. Layihənin icrası mühəndislik təhsilinin inkişafına mühüm töhfə verməklə yanaşı, müasir akademik məzmunun və innovativ tədris metodlarının tətbiqini təşviq edən, tələbələrin hərtərəfli inkişafını dəstəkləyən qabaqcıl ali təhsil mühitinin formalaşdırılmasına xidmət göstərəcək.



**Ağdamda metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışı olub.**

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib. "Construction" MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi. Bildirildi ki, Sənaye Parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Qeyd edək ki, dövlətimizin başçısının 2021-ci ildə imzaladığı Fərmana əsasən, 190 hektar ərazidə yaradılan Ağdam Sənaye Parkının məqsədi işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir. Sahibkarlıq fəaliyyətinin inkişafı üçün burada dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb.



**Azərbaycanda asbestin istifadəsi qadağan ediləcək.**

Azərbaycanda asbestin istifadəsi qadağan ediləcək. Bununla bağlı "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" qanuna dəyişiklik təklif edilib. Milli Məclisin dekabrın 26-da keçiriləcək plenar iclasının gündəliyinə daxil edilən dəyişiklik layihəsində qeyd olunub ki, asbest uzun illər ərzində sənayenin bir çox sahələrində (sement, kimya, izolyasiya, kağız sənayesi və sair) və tikintidə geniş istifadə olunan mineral tərkibli materialdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, Azərbaycana 2023-cü ildə 591 ton asbest və 30 min 238 ton tərkibində asbest olan təbəqələr, 2024-cü ildə isə 1 045 ton asbest və 27 min 634 ton tərkibində asbest olan təbəqələr idxal edilib. Asbest tərkibli dam örtükləri (şifer) ölkədə ümumi dam örtüyü fondunun 29 faizini təşkil edir və təxminən 190 milyon $m^2$ sahəni əhatə edir. Ölkədə şifer istehlakı 2,6 milyon $m^2$ və ya 1,5 milyon list təşkil edir. Hazırda ölkənin dam örtüyü bazarının 15-20 faizi şiferin payına düşür. Elmi araşdırmalar onun insan sağlamlığı üçün ciddi təhlükə yaratdığını sübut etdikdən sonra bir sıra ölkələrdə asbest və asbest tərkibli məhsulların istifadəsi qadağan edilib. Beləliklə, beynəlxalq təcrübə nəzərə alınmaqla, qanun layihəsinə əsasən asbest və tərkibində asbest olan materiallar mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısına daxil edilir. Qanun qəbul ediləcəyi təqdirdə, 2027-ci il iyulun 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.



**Binalarla bağlı yeni qayda mənzillərin qiymətinə - TƏSİR EDƏCƏKMİ?**

Çoxmərtrəbəli yaşayış binaları bundan sonra yeni qaydalarla tikiləcək. Söhbət hündürlüyü 200 metrdən çox olan binalardan gedir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bina və qurğuların getdikcə artan dağılmadan mühafizəsi ilə bağlı qaydaları təsdiqləyib. Bu normalar hündürlüyü 75 metrə qədər, 75 metrdən 200 metrə qədər və 200 metrdən çox olan binalar üçün nəzərdə tutulub.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyir ki, hazırda paytaxda istifadə müddəti bitmiş 11 minə yaxın yaşayış binası və 1500-yə qədər qəzalı bina var. 2040-cı ilə qədər köhnə binaların sökülməsi nəzərdə tutulur. Yerində binalar tikilərkən yeni təsdiq edilən qaydalara uyğun tikiləcək. Bəs bu addım evlərin qiymətinə necə təsir edəcək? Ekspert hesab edir ki, evlərin qiyməti mərtəbələrinə və görünüşünə görə dəyişə bilər. Elnur Fərzəliyev onu da əlavə etdi ki, belə hündürlükdə binalar gələcəkdə az sayda tikiləcək ki, burda da mənzillərin kvadratmetri 7-10 min manat civarında dəyişə bilər.



**Azad olunan ərazilərdə MMC statuslu vahid Mənzil-kommunal Təsərrüfatı Müəssisəsi yaradılacaq.**

Yerli icra hakimiyyəti başçılarının tabeliyində olan mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən müəssisələrin fəaliyyəti təkmilləşdirilir.

Baş nazir Əli Əsədov bununla bağlı müvafiq qərar imzalayıb.

Qərarla Yerli icra hakimiyyəti başçısının tabeliyində olan Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin Nümunəvi Nizamnaməsi təsdiqlənib.

Yerli icra hakimiyyəti (Bakı şəhəri, Laçın, Cəbrayıl, Xocavənd, Xocalı, Kəlbəcər və Qubadlı rayonları istisna olmaqla) orqanları altı ay müddətində aidiyyəti üzrə tabeliklərində olan mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən müəssisələrin əsasında məhdud məsuliyyətli cəmiyyət statusunda vahid Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin yaradılması ilə bağlı təklifləri Nazirlər Kabinetinə təqdim edəcək.



**WUF13-də urbanizasiyanın inkişafı şəraitində aktual olan bir sıra məsələlərin müzakirəsi gözlənilir.**

Ümumdünya Şəhərsalma Forumunun (WUF13) keçirilməsi ərəfəsində şəhərlərimizin baş planları hazırlanır və bu baş planlar əsasında regionlarımız planlı şəkildə inkişaf edir. Bu sözləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov jurnalistlərə açıqlamasında deyib. O qeyd edib ki, Ümumdünya Şəhərsalma Forumunda urbanizasiyanın inkişafı şəraitində aktual olan bir sıra məsələlərin müzakirəsi gözlənilir. “Bunlardan ən əsası mənzil problemləri ilə bağlı məsələlərdir. Bir sıra inkişaf etməkdə olan ölkələrdə bu problemlər daha qabarıq nəzərə çarpır. Azərbaycanın bu istiqamətdə həm böyük təcrübəsi, həm də böyük uğurları var. İşğaldan azad olunmuş ərazilərdə çox qısa bir zamanda yüzlərlə yaşayış məntəqəsinin planlaşdırma sənədləri hazırlanıb və həmin ərazilərə əhalimizin qayıdışı davam edir”,- deyə o bildirib. İ.İsbatov diqqətə çatdırıb ki, həmçinin 12 şəhərin planlaşdırma sənədləri əsasında həmin şəhərlər yenidən qurulur: “Çox qısa bir dövr üçün hazırlanmış və icra olunan bu nümunə məncə, misilsiz bir nümunədir. Biz tədbir zamanı dünyanın müxtəlif ölkələrindən gəlmiş mütəxəssislərlə öz təcrübəmizi bölüşəcəyik”.



**Sərginin adı: WINDOWS, DOORS AND FACADES EVENT - SAUDI ARABIA 2026**

**Tarixlər: 18-21 yanvar 2026-cı il,**

**Məkan: Ər-Riyad Sərgi və Konfrans Mərkəzi – RFECC, Ər-Riyad (Səudiyyə Ərəbistanı)**

Səudiyyə Ərəbistanında Pəncərələr, Qapılar, Fasadlar və Şüşə Sənayesi Ticarət Sərgisi. Dəbdəbəli mərmər və təbii daşdan tutmuş davamlı və dayanıqlı kompozitlərə qədər, dizaynı və performansı yüksəldən etibarlı təchizatçılar tapa biləcəyiniz yer.

**Sərginin adı: CONSTRUCTION AND ARCHITECTURE 2026**

**Tarixlər: 21 - 23 yanvar 2026 -ci il,**

**Məkan: Sibir Beynəlxalq Sərgi Biznes Mərkəzi, Krasnoyarsk (Rusiya)**

Tikinti layihələri və memarlıq dizaynları, yeni texnologiyalar və tikinti avadanlıqları, tikinti materiallarının ixtisaslaşmış sərgisi. İllik memarlıq dizaynları müsabiqəsi.

**Sərginin adı: BUILD ASIA 2026**

**Tarixlər: 22-24 yanvar 2026-cı il,**

**Məkan: Karaçi Sərgi Mərkəzi, Karaçi (Pakistan)**

Pakistanın Beynəlxalq Tikinti Materialları və Tikinti Maşınları Ticarət Sərgisi. Tədbirə həmçinin Coating Expo, Furniture Asia, Property Asia və Stonefair Asia Beynəlxalq Sərgiləri də daxildir.

**Sərginin adı: MIDEX - ARCHITECTURE - MODERN HOUSE - INTERIOR DESIGN 2026**

**Tarixlər: 22-25 yanvar 2026-cı il,**

**Məkan: Tehran Daimi Sərgi Meydanı, Tehran (İran)**

Memarlıq, Müasir Ev və İnteryer Dizaynı Ticarət Sərgisi. İranda Memarlıq və İnteryer Dizaynı sahəsində beynəlxalq tədbir.

**Məcburi köçkünlərin yaşadığı binalarda 431 minlik - TƏMİR İŞLƏRİ GÖRÜLƏCƏK**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Tikilməkdə Olan Müəssisələr Müdiriyyəti (VÖEN – 1500325661) açıq tender elan edir.
Tenderin predmeti Bakı şəhəri ərazisində məcburi köçkünlərin məskunlaşdığı binalarda cari təmir işlərinin satınalınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əliyeva Sehranə - Mütəxəssis
Email: t_tmm@list.ru
Əlaqə telefonu: +994 12 431 47 45



**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN BAŞ DÖVLƏT YOL POLİSİ İDARƏSİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi açıq müsabiqə elan edir.
Tenderin predmeti DİN BDYPİ-yə bilavasitə tabe olan Qeydiyyat-imtahan idarəsi və İmişli Regional Qeydiyyat-imtahan şöbəsində aparılacaq cari təmir işlərinin satınalınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rzayev İqbal İlqar oğlu, Baş mühəndis-inspektor
Email: secretariat@dyp.gov.az
Əlaqə telefonu:+994 12 590 81 50



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Tenderin predmeti Xocəvənd rayonunun Tuğ qəsəbəsi üzrə qeyri yaşayış binalarının (məktəb, bağça və qazanxana) təmir - bərpa, kommunikasiya, yaşıllıq və abadlıq işlərinin satınalınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Emil Quliyev, Baş məsləhətçi
Email: emil.guliyev@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 640 00 04





**www.atmia.az**